Azərbaycan.- 2021.- 24 aprel. S. 2.

# Bir sıra rayonlarda əkin sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılmasına və əhalinin içməli suya tələbatının ödənilməsinə dair əlavə tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Əhalisi 29662 nəfər olan 5 rayonun 16 yaşayış məntəqəsində (siyahı əlavə olunur) əkin sahələrinin və əkin üçün istifadə olunan həyətyanı torpaq sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması, habelə əhalinin içməli suya tələbatının ödənilməsi üçün 25 ədəd subartezian quyusunun layihələndirilməsi və qazılması məqsədilə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.8.8-ci yarımbəndində göstərilmiş məbləğin 1,75 milyon (bir milyon yeddi yüz əlli min) manatı Azərbaycan Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinə ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 aprel 2021-ci il*

---

*Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 23 aprel tarixli Sərəncamına Əlavə*

## Qazılması nəzərdə tutulan subartezian quyularının yaşayış məntəqələri üzrə bölgüsünə dair siyahı

| Sıra №-si | Rayonun adı | Quyuların sayı, ədəd | Yaşayış məntəqələrinin adı | Əhalinin sayı, nəfər |
|---|---|---|---|---|
| 1. | Beyləqan | 7 | Aşağı Çəmənli kəndi | 1483 |
| | | | Baharabad qəsəbəsi | 1006 |
| | | | Dünyamalılar kəndi | 7539 |
| | | | Kəbirli kəndi | 5060 |
| | | | Mayak qəsəbəsi (2 quyu) | 834 |
| | | | Örənqala qəsəbəsi | 2123 |
| 2. | Cəbrayıl (Biləsuvar rayonu ərazisi) | 2 | 1 №-li qəsəbə | 1600 |
| 3. | Füzuli | 10 | Alxanlı kəndi (2 quyu) | 1800 |
| | | | Aşağı Kürdmahmudlu kəndi | 1235 |
| | | | Aşağı Yağlıvənd kəndi | 1720 |
| | | | Birinci Mahmudlu kəndi (2 quyu) | 822 |
| | | | Əhmədbəyli kəndi | 986 |
| | | | İkinci Mahmudlu kəndi | 1564 |
| | | | Yuxarı Kürdmahmudlu kəndi (2 quyu) | 1270 |
| 4. | Xocavənd | 2 | Nərgiztəpə ərazisi | 70 |
| 5. | Şuşa (Ağdam rayonu ərazisi) | 4 | Mirzələr qış yatağı | 550 |
| **Cəmi:** | | **25** | **16** | **29 662** |